# METAL KOMPLEKS KATALIZIN NAILIYYƏTLƏRI

**T.Ə. Ağdamski, Ş.A. Məmmədova, M.E.Şəfiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Fiziki və üzvi kimya elmləri sərhəddində yaranmış katalitik kimya elminin son illərdə bir neçə istiqamətdə sahələri yaranmışdır. Bunlara nanokataliz, spinkataliz, metalkompleks sahələrini göstərmək olar. Metal kompleks kataliz katalitik kimya elminin praktiki və nəzəri əhəmiyyət kəsb edən sahəsinə aiddir. Tədqiqatçıların bu istiqamətə olan diqqətləri daha da artmaqdadır. Buna əsas səbəb isə keçid metal komplekslərinin geniş imkanlara malik olmalarıdır.

Müasir kimya sənayesində kompleks birləşmələrlə katalizə böyük diqqət yetirilir. Bu növ katalizdə heterogen katalizə aid olan bir neçə mürəkkəb xarakterli tədqiqatların aparılmasına ehtiyac olmur. Metalliqand qarşılıqlı təsiri probleminin nəzəri əhəmiyyəti zərif üzvi sintezdə keçid metal komplekslərindən istifadə olunması ilə əlaqədardır. Üzvi maddə molekulları ilə koordinasiyaya daxil olaraq onların elektron quruluşunda dəyişikliyi sürətləndirən yalnız protonlar deyil, elektron çatışmazlığı olan başqa atom və molekullarda ola bilər. Belə xassəli maddələr Luis turşuluğuna malik olan birləşmələrdir. Onların mühüm nümayəndələri $BF_3$, Al, Ti, Sn, Hg halogenləridir. Daha geniş katolitik fəallığa malik keçid element atomları və onların əsasında alınan müxtəlif komplekslərdir. Məlumdur ki, keçid metalların xarici elektron təbəqələrinin $s$ və $p$ səviyyələri əvvəlki $d$ səviyyəsinə yaxın olur. Keçid metal atom və ionlarının başqa maddə molekul və yaxud bir neçə liqandla kompleks birləşməsini əmələ gətirir. Metal ionuna liqandaların $(NH_3, NH_2, CN^-, CrO_4^{2-})$ birləşməsi ionun katalitik xassəsini keyfiyyət və kəmiyyətcə dəyişdirir. Mis ionu hidrogen peroksidi zəif parçaladığı halda $Cu(NH_3)_4^{2+}$ kompleks ionu fəallığı milyon dəfəyə qədər artırır. Kompleks katalizatorların katalitik təsiri koordinasiya sferasına substrat molekullarının daxil olması ilə zəif rabitəli liqandaların çıxarılması nəticəsində yaranır.

Bu sahədə daha geniş tədqiqatlar kompleks birləşmələrlə kiçik molekulların CO, $H_2$, $N_2$, $CO_2$, $O_2$ və s. fəallaşdırılması istiqamətində aparılmışdır.

Üzvi təbiətli liqandalar bir qayda olaraq bir-biri ilə əlaqəli olmurlar. Onlar arasında dəfetmə qüvvələri təsir göstərir. Liqandalar arasında molekullar arası cəzbetmə qüvvəsi yarana bilər və bu qüvvə hidrogen rabitəsi xarakterində olur. Mərkəzi atomla liqandalar iki mərkəzli $\sigma, \pi, \delta$ rabitələrlə əlaqələnə bilər. Eyni zamanda çox mərkəzli rabitələrdə ola bilər, əgər nüvə liqand rabitəsi iki

mərkəzli olarsa bu zaman koordinasiya ədədi $\sigma$ rabitənin sayına bərabər olar. Əgər nüvə liqand rabitəsi çox nüvəli olarsa onda liqandın dentatlığını və koordinasiya ədədini təyin etmək qeyri mümkün olur. Mərkəzi ionun oksidləşmə dərəcəsi (elektrovalentlik) kompleks hissəciyin yükü ilə liqandların formal yüklərinin cəminin fərdinə bərabərdir. Liqandaların metal ilə əmələ gətirdiyi kimyəvi rabitənin xarakterinə görə kataliz üçün əhəmiyyət kəsb edən liqandalar dörd qrupa bölünür.

Birinci qrupa bir molekulyar orbitalı olan bölünməyən elektron cütünə malik liqandlar daxildir. Onlar keçid metal atomu və ya ionu ilə qarşılıqlı təsirdə olur ($NH_3$, $H_2O$). Metalın vakantlı $d, s$ və $p$-orbitalları ilə rabitə yaradır. Bu donor $\sigma$ rabitə olur.

İkinci qrupa keçid metalla qarşılıqlı təsir qabiliyyətinə malik olan bir elektrona və bir orbitalı olan liqandlar $(H^{\cdot}, CH_3^{\cdot}, C_2H_5^{\cdot})$ aiddir. Burada da $\sigma$ rabitə yaranır. Lakin iki elektronlu rabitənin yaranması üçün bir elektronlu metal orbitalı olmalıdır. Belə rabitənin yaranması üçün metalın elektronu rabitə dağıdıcı orbitaldan rabitə yaradıcı orbitala keçməlidir, yəni metal oksidləşməlidir.

Üçüncü qrupa metalın iki valentlik orbitalları ilə qarşılıqlı təsirə malik olan iki tamamlanmış orbitallı liqandlar $Cl^-$, $Br^-$, $J^-$ aiddir. Onlar iki rabitə yaradırlar: metalın $d_{x^2-y^2}$ orbitalı ilə liqandların $p_x$ orbitalı arasında $\sigma$ rabitə, metalın $d_{xy}$ orbitalı ilə liqandın $p_x$ orbitalı arasında $\pi$ rabitə. Onların hər ikisi donor rabitədir, yani hər iki cüt elektronlar liqanda aid olur. Metalla kovalent rabitə yaranan zaman metalda elektron sıxlığı artır. Ona görə də liqandlar metalın koordinasiya sferasında davamlı olurlar. Metal kompleks katalizdə bu növ liqandlar nadir halda iştirak edir.

Dördüncü qrupa metalla qarşılıqlı təsirdə ola bilən tamamlanmış və vakantlı orbitallara malik liqandlar (CO, olefinlər, fosfin) daxildir. Bu qrup liqandlardan homogen metal kompleks katalizdə daha geniş surətdə istifadə edilir. Karbon (II) oksid ilə metal atomunun koordinasiyası zamanı ikiqat rabitə yaranır (şəkil 1). Elektronların karbon (II) oksid molekulunun tamamlanmış əlaqələndirici orbitalından metalın $d_{x^2-y^2}$ vakantlı orbitala keçməsi nəticəsində donor rabitə (şəkil 1a), digər tərəfdən elektronların metalın tamamlanmış $d_{xy}$ orbitalından karbon (II) oksid rabitədağıdıcı $\pi$-orbitalına keçməsi ilə akseptor $\pi$-rabitə yaranır (şəkil 1b). Keçid metal kompleksində belə ikiqat rabitənin xarakteri dativ adlanır.




Şəkil 1. Keçid metalın CO liqandı ilə dativ rabitəsi
a - $\sigma$ rabitə:
1 – keçid metalın $d_{x^2-y^2}$ vakantlı orbitalı;
2 – CO-nun tamamlanmış rabitə yaradıcı $\sigma$-orbitalı.
b - $\pi$-rabitə:
1 - keçid metalın tamamlanmış $d_{xy}$ orbitalı;
2 – CO-nun vakantlı rabitə dağıdıcı $\pi$-orbitalı.

Metal kompleks katalizatorlar iştirakilə reaksiyalar daha yumşaq şəraitdə gedir. Belə reaksiyalara ammonyakın sintezi, etilenin hidrogenləşməsini göstərmək olar. Etilenin hidrogenləşməsi ümumi halda

$$C_2H_2 + H_2 = C_2H_6$$

tənliyi üzrə gedir. Reaksiyanı mərhələlərlə göstərsək:

$$H_2 = 2H^{\cdot}$$
$$H^{\cdot} + C_2H_4 \rightarrow C_2H_5$$
$$C_2H_5^{\cdot} + H^{\cdot} \rightarrow C_2H_6$$

alınır.

Katalizator iştirak etmədən reaksiyanın sürəti zəif olur. Ona görə ki, hidrogen molekulunda atomlar arası rabitənin qırılmasına çox miqdar enerji tələb edilir. Lakin bu reaksiya radium kompleks katalizatoru iştirakilə daha asan gedir:

$$Cl(Pph_3)_2\text{Rh}$$

Metal kompleksini ФM ilə göstərək.
Burada Ф – koordinasiya sferası;
M – metalı göstərir.

Göstərilən katalitik reaksiyanın birinci mərhələsini hidrogen molekulunun kompleksə birləşməsi təşkil edir:




Burada H-H rabitəsinin qırılmasına sərf olunan enerji hidrogenlə metal arasında əmələ gələn rabitə enerjisi ilə kompensə olunur. İkinci mərhələ aşağıdaki ardıcıllıqla gedir:




Kompleksin koordinasiya sferasına etilen molekulunun birləşməsi, rabitələrin paylanması nəticəsində son məhsul və katalizator ayrılır.

Metal kompleks katalizatorlar həm homogen həm də heterogen katalizin katalizatorları ola bilər. Homogen metal kompleks katalizin tətbiqi ilə sənayedə həyata keçirilən iki mühüm əhəmiyyət kəsb edən prosesləri göstərək. Bunlardan birincisi havanın oksigeni iştirakilə etilenin asetaldehidə oksidləşməsidir. O, sənayedə Vaker prosesi adlanır.

$C_2H_4 + 1/2\ O_2 \rightarrow CH_3CHO$

Sənaye Vaker prosesində etilen və oksigen reaktora verilir, məhlulda başqa ionlarla yanaşı $H_3O^+, Cu^{2+}, Cl^-, PdCl_4^{2-}$ ionları da olur. Proses 300-400 K və 0,3 MPa təzyiqdə aparılır.

İkinci proses olefinlərin hidroformilləşməsi və ya oksosintezdir. Burada olefinə karbon 2-oksid və hidrogenlə təsir etməklə şaxələnmiş və şaxələnməyən quruluşa malik aldehid qarışığı alınır:



Oksosintez reaksiyası maye üzvi fazada aparılır. Katalizator olaraq Uilkinson kompleksindən $Rh(CO)Cl(PPh_3)_2$ istifadə edilir. Burada $P$-fenil, $Ph_3$ - fosfin qrupudur. Bu kompleksin iştirakilə şaxələnməyən aldehidin alınması sxem şəklində göstərmək olar:




Bu iki mərhələ nəticəsində katalizatorun başlanğıc vəziyyətindən işçi (1) alınır. Sadəlik üçün keçid metal $(Rh)$ və koordinasiya sferası göstərilmir. Sonra altı ardıcıl elementar mərhələrlə aldehid alınır.




I və II mərhələlərində CO və $CH_2CHR$ liqandlarının birləşməsi ilə koordinasiya ədədi 6 olan III kompleksi alınır. III, IV mərhələləri üzrə tsis daxil edilməklə V kompleksinin daxilində $RCH_2RCH_2CHO$ aldehidi sintez edilir. Hidrogen molekulunun oksidləşdirici birləşməsindən sonra (VI kompleks) $RCH_2RCH_2CHO$ aldehidi ayrılır və katalizator (I kompleksi) bərpa olunur. Metal kompleks katalizatorla pronilenin hidroformilləşmə reaksiyasının kinetikası aşağıdaki tənliklə ifadə olunur:

$$V = KC_k \cdot C_{pr} \cdot P_{H^2}$$

Metal kompleks kataliz sahəsində əldə edilən mühüm nəticələrdən bəzilərini qeyd edək:

1. Alkanların fəallaşdırılması və funksionallaşdırılması.
   a. Palladium duzlarının təsiri ilə alkanların oksidləşdirici funksionallaşdırılması
      $RH + Pd(OCOCF_3)_2 = ROCOCF_3 + Pd + CF_3COOH$
      Reaksiya $80^0$ C, 60 atmosferdə 3-4 s. ərzində gedir. Çıxım 60% təşkil edir.
   b. Sulu məhlullarda platin duzlarının təsiri ilə metil qruplarının seçici hidroksilləşdirilməsi. Etanolun etilen qlikola birbaşa çevrilməsi:
      $C_2H_5OH + Pt(IV) \xrightarrow{Pt(II)} HOCH_2CH_2OH + HOCH_2CH_2Cl +$
      5% 2%
      $+ CH_3CH(OH)_2 + CH_3COOH + HOCH_2COOH + CO_2$
      5% 7% 5% 8%
      Reaksiya $120^0$ C gedir.
   c. Otaq temperaturunda doymuş və alkilaromatik karbohidrogellərin havanın oksigeni ilə oksidləşdirilməsi.
2. Hidrometilləşdirilmə reaksiyası.
   Bu istiqamətdə etilenin, asetilenin və karbon monooksidin hidrometilləşdirilməsi
   $CH_2 + C_2H_4 \rightarrow C_3H_8;\ CH_4 + C_2H_2 \rightarrow C_3H_8;\ CH_4 + CO \rightarrow CH_3CHO$
   Reaksiya 20-$50^0$ C də, dəmir, nikel, titan kompleks katalizatorlar iştirakilə gedir.
3. Alkan və orenlərin işıq şuası təsiri ilə katalitik funksionallaşdırılması
4. Doymuş karbohidrogenlərdə C–C rabitəsinin fəallaşdırılması.

Üzvi aproton superturşuların kəşfi alkan və alkenlərin bir neçə istiqamətdə çevrilməsinə şərait yaratmışdır. Nəticədə parafinlərin aşağı temperaturlar kimyəvi sahəsi yaranmışvə inkişaf etmişdir. Alkan və alkenlərində C–C rabitəsinin mayefazalı katalitik qırılmasının həyata keçirilməsi ilkin tədqiqatlardan biri hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Ağlamski T.Ə. “Kimyəvi kinetika və kataliz”, B., 2000
2. Стромберг А.Г., Семченко Д.П. «Физическая химия», М., 1988.
3. Успехи химии, т. 59, в. 12, 1990.

Агдамский Т.А., Мамедова Ш.А., Шафиева М.Е.

**Успехи металлокомплексного катализа**

**АННОТАЦИЯ**

В статье изложены основные характеристики и некоторые наиболее важные результаты в области металл комплексного катализа: активация и функционализация алканов, селективное окисление метана в метилтрифторацетат, селективное гидроксилирование метильных групп под действием солей платины в водных растворах. Прямое превращение этанола в этиленгликоль. Реакция гидрометилирования активация C-C связи в насыщенных углеводородах.

Охарактеризован четыре групп лигандов имеющих значение для катализа: лиганды, имеющие только одну молекулярную орбиталь, лиганды имеющие одну орбиталь с одним электроном, лиганды с двумя заполненными орбиталями, лиганды имеющие наряду с заполненными также вакантные орбитали.

Рассмотрены и оценены достижения последних лет в области создания и применения металл комплексного катализа, вероятный механизм наиболее важных промышленных процессов. Вакер процесс-окисление этилена в ацетальдегид кислородом воздуха, и оксосинтез или гидроформилирование олефинов.

Agdamskiy T.A., Mammadova Sh.A., Shafiyeva M.E.

**Advances metal complex catalysis**

**ANNOTATION**

The article describes the main characteristics and some of the most important results in the field of metal complex catalysis: activation and functionalization of alkanes in the selective methane oxidation ethyl trifluoroacetate, selective hydroxylation of the methyl groups by salts of platinum in aqueous solutions. Direct conversion of ethanol into ethylene. Chloromethylation reaction activation of the C-C bond in saturated hydrocarbons.

Characterized by four groups of the ligand are important for catalysis: ligands having only one molecular orbital, ligands having a single electron orbital, ligands with two occupied orbitals having ligands along with filled and vacant orbitals.

Examined and evaluated the achievements of recent years in the development and application of metal complex catalysis probable mechanism of the most important industrial processes. Wacker-oxidation process of ethylene to acetaldehyde oxygen, and oxo synthesis or hydroformylation of olefins.

**Açar sözlər:** kataliz, liqand, hidroformilləşmə

**Ключевые слова:** катализ, лиганда, гидроформализация

**Key words:** catalysis, the ligand, hydroformalization